NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, № 1 (127)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 1 (127)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, № 1 (127)

# TARİX

**CƏMİLƏ MƏHƏRRƏMOVA**
*CemileNihatMeherremova@gmail*
*AMEA Naxçıvan Bölməsi*

**DOI: 10.30546/155244.2024.2.127.004**

## KƏNGƏRLİ ETNONİMİNİN NAXÇIVAN TOPONİMLƏRİNƏ TƏSİRİ VƏ ONLARIN ETİMOLOJİ TƏHLİLİ

*Məqalədə Kəngərli tayfa adı ilə bağlı yaranan Naxçıvan ərazisinə daxil olan toponimlərdən və bu toponimlərin etnolinqvistik təhlilindən bəhs olunur. Tayfa adları ilə bağlı yaranan toponimlər etnotoponim hesab olunur. Etnonim səciyyəli toponimlərin yaranmasında qədim türk tayfa, nəsil, xalq, tirə, qəbilə adları əsas rol oynayır. Ərazidə mövcud olan Kəngərli tayfa adı ilə sıx bağlı olan bu toponimlərin, xüsusilə də oykonimlərin qədim mənbələrdə mövcudluğu araşdırılmış və bu faktlar məqalədə öz əksini tapmışdır. Naxçıvan Muxtar Respublikası ərazisinə daxil olan Kəngərli tayfa adı ilə bağlı yaranan-etnonim səciyyəli toponimlərdən bir neçəsi (Qarabağlar, Qaraxanbəyli, Qalasər, Yurdçu-Girdəsər, Ərəfsə, Kəmərli, Xal-xal, Türkeş) etnolinqvistik təhlili aparılmışdır.*

***Açar sözlər:** Naxçıvan, etnotoponim, oykonim, toponim, Qarabağlar, Qaraxanbəyli, Qalasər, Yurdçu-Girdəsər, Ərəfsə, Kəmərli, Xal-xal, Türkeş*

**Giriş**

Naxçıvan ərazisi qədim zamanlardan müxtəlif xalqların, tayfaların, qəbilə və nəsillərin yaşayış məskəni olduğu üçün bu xüsusiyyətlər bölgənin toponimlərində də öz təsirini göstərmişdir. Toponimlər dilimizdə mövcud olan söz qrupları əsasında yaranmış, məna əsasına görə müxtəlif yollarla formalaşmışdır. Onların bir çox hissəsi uzaq tarixi keçmişimizlə, bir qismi isə son dövrlərə aid olan dil faktlarıdır. Coğrafi obyektlərə ad verərkən obyektlərin müəyyən əlamət və xüsusiyyətləri nəzərə alınır ki, onların daha çoxu qədim türk tayfa, nəsil, xalq, tirə, qəbilə adları əsasında formalaşır.

Naxçıvanda qədim dövrlərdən bəri yaşayan güclü tayfa ittifaqlarından biri də Kəngərli tayfalarıdır. Bu tayfalar və onların müxtəlif tirələrinin yaşadığı ərazilər Naxçıvanın geniş bir hissəsini əhatə edir. V.Qriqoryev Naxçıvan dairəsinin əhalisindən danışarkən qeyd edir: "Diyarbəkirdən gəlmiş Kəngərli tayfaları öz döyüşkənliyi ilə digər tayfalardan fərqlənirlər. Dairə üzrə onlar 920 həyətdə yaşayırlar və müxtəlif tayfa və ya nəsillərə bölünürlər" (11, s.31). V.Qriqoryevin fikrincə, burada VI və VII əsrdən etibarən yaşayan müsəlmanlar müxtəlif tayfalara bölünürlər ki, bunlardan da Kəngərlilər və Qaracalar xüsusi qeyd olunur (11, s.31). Kəngərlilər özləri də müxtəlif tirələrdən ibarətdir. Müəllif burada Kəngərli tayfalarının adlarını sadalayır, onların yaşadıqları kəndləri göstərir: Yurtçu (Cəhri kəndində), Gümüşlü (Gaurarx, Xök, Şahtaxtı, Gildəsər kəndlərində), Xalxallı (Vayxır kəndində), Qaraxanbəyli (Vayxır kəndində), Ağabəyli, Cığataylı, Qaracalı, Billici, Qaratulaqlı, Gecələr, Sarvanlar, Şahbanlı, Əlixanlı (Naxçıvan şəhərində), Ərovanlı (Dizəçi Kərimbəy kəndində), Salayçı (yarısı şəhərdə, digər yarısı Nəhəcir, Külüs, Mahmudoba kəndlərində), Qızıllı (Kültəpə kəndində), Pirxaxanlı (Qahab kəndində), Qızıl Qışlaqlı (Bulqan kəndində), Kəlfirli (Tirkeş, Sələsüz kəndlərində), Qarabağlar (Qarabağlar kəndində) (11, s.32). K.N.Smirnov qeyd edir ki, Nax yurdunda türk tayfalarından, əsasən, bayat, Kəngərli və Cavanşirlər məskunlaşmışlar. O, kəngərlilərin Qafqaza, o cümlədən Naxçıvan ərazisinə əsrlər öncə gəldiyini, hətta bir rəvayətə görə, onların min il bundan əvvəl Cavanşirlər tayfası ilə birlikdə Zaqafqaziyanı işğal etmək üçün Qarabağ və Nax yurduna

gəldiyini yazır. Rəvayətə görə, onlar Türküstan ərazisindən - Amudərya və Sırdərya (Seyhun və Ceyhun) arasındakı torpaqlardan köçüb gəlmişlər (13, s.12). Bu tayfaların Naxçıvanın idarəçiliyində rolundan bəhs edən K.Smirnov yazır ki, Naxçıvanda, demək olar ki, bütün bəy soyadları Kəngərli nəsillərinin adlarından əmələ gəlmişdir (13, s.26).

Beləliklə, XIX-XX əsr mənbələrində qeydə alınmış Qarabağlar, Qaraxanbəyli, Qalasər, Yurdçu-Girdəsər, Ərəfsə, Kəmərli, Xal-xal, Türkeş oykonimləri Kəngərli tayfalarının adlarını özündə saxlayan yer-yurd adlarımızdandır.

**Ərəfsə.** Hazırda, Culfa rayonunda kənddir. XIX əsrdə Naxçıvan əyalətinin Əlincəçay mahalına (14, s.488), XX əsrin əvvəllərində Naxçıvan qəzasına aid kənd adıdır (12, s.51). V.Qriqoryev Ərəfsə və Ləkətağ kəndlərinin Əlincəçayın lap yuxarılarında yerləşən iki qarışıq kənd olduğunu yazır (11, s.158). Adil Bağırov bu toponimlə bağlı tədqiqatlarında oykonimin 1590-cı il tarixli mənbədə Sisyan nahiyəsində Ərəfsəcik, Əlincə nahiyəsində Böyük Ərəfsaq, Kiçik Ərəfsaq kəndləri, 1728-ci il tarixli mənbədə Qarabağ nahiyəsinə aid Ərəfşağı köçəri yalı qışlağı kəndləri kimi qeydə alındığını göstərmişdir (4, s.232-233, 242).

Tədqiqatçılar bu adın tarixinin XIV əsrdə Kiçik Asiyada Xett (Het) dövlətinin mövcud olduğu bir vaxta gedib çıxdığını yazırlar. Belə ki, Het dövlətinin hökmdarı II Murşilinin qayaüstü yazısında *Aripsa* adlı kiçik ölkə və qalanın adı çəkilir. Tədqiqatçılar bu adın sonradan Ərəfsə şəklinə düşərək Naxçıvana gətirildiyini düşünürlər. VI əsr Bizans mənbələrində *Arabis,* orta əsr erməni mənbələrində *Arevis* şəklində qeyd olunmuşdur (2, s.263; 8, s.64).

K.N.Smirnov kənd adını *Ərəvs* və ya *Ərəvsək* kimi qeyd edir və fars mənşəli sözdən yarandığını, “dağ yamacı” mənasını ifadə etdiyini yazır (13, s.50). Tədqiqatçı daha bir qeydində *ərəfsəkli* tayfasını kəngərlilərin bir qolu kimi təqdim edir (13, s.15). İ.Bayramov da bu fikirdədir ki, toponim Kəngərli türk tayfasından olan *ərəfsəli* etnonimindən əmələ gəlmişdir (5, s.146). Lakin digər bir mənbədə göstərilir ki, hazırda Culfa rayonunda olan Ərəfsə kəndi kəngərlilər buraya köçməzdən əvvəl mövcud olmuşdur. Kəngərlilərin sofulu tirəsi sonradan bu toponimi özlərinə nəsil adı olaraq götürmüşdür (8, s.64).

**Kəmərli**. XX əsrin əvvəllərində Şərur-Dərələyəz qəzasına aid Kömürlü kəndi qeydə alınmışdır. XIX əsrdə isə Naxçıvan əyalətinin Dərələyəz mahalında Gümürlü kəndi olmuşdur (14, s.499). K.N.Smirnov Kəmərli şəklində qeyd edir. Fikrimizcə bu, eyni kənd adının müxtəlif variantlarıdır. K.N.Smirnov buranın Kəmər xan Kəngərlinin kəndi olduğunu qeyd edir (13, s.52).

**Qıvraq.** Hazırda, Kəngərli rayonunun mərkəzi kəndidir. XIX əsrdə Naxçıvan əyalətinin Xok mahalına (14, s.498), XX əsrin əvvəllərində Naxçıvan qəzasına aid kənd adıdır (12, s.164). 1925-ci ildən 1930-cu ilə qədər 19 kəndi əhatə edən rayon adı olmuşdur.

K.N.Smirnov *Kivraq* şəklində qeyd edir və yazır ki, toponim türk dilində “cəsur” mənasında işlənir. Tədqiqatçı bu kənddə üzərində yazı olan qədim daş qoyun heykəllərinin olduğuna da diqqət çəkir (13, s.52).

Qıvraq toponimi həm oykonim, həm də oronim kimi mövcuddur. Bir sıra tədqiqatçıların fikrinə görə oykonim oronim əsasında formalaşmış, digər bir fikrə görə, kəngərlilərə məxsus tirə adı əsasında yaranmışdır. Belə ki, kənd kəngərlilərə məxsus mülkün adı olmuşdur və burada kəngərlilərə aid ailələr məskunlaşmışdır. Bəzi tədqiqatçıların fikrincə, *qıvraq* – “yığcam, balacaboylu, kiçik” deməkdir (7, s.86). Azərbaycan dilində *qıvraq, cəld* həmçinin də “cəsur” mənasında işlənir.

**Qarabağlar.** Hazırda Kəngərli rayonunda kənddir. XIX əsrdə Naxçıvan əyalətinin Xok mahalına (14, s.496; 11, s.150), XX əsrin əvvəllərində Naxçıvan qəzasına aid kənd olmuşdur (12, s.147). Azərbaycan ərazisində Qarabağ, Qarabağlar, Qarabağlı kənd adları geniş yayılmışdır. Bu hal XX əsr mənbələrində əksini tapmışdır. Hazırda Xanlar, Göyçay rayonlarında da Qarabağlar kəndi mövcuddur. Tədqiqatçılar kənd adını eramızın əvvəllərində hun tayfalarının tərkibində Cənubi Qafqaza gəlmiş türkdilli Kəngərlər-Peçeneqlərin Qarabağlar tayfasının adı ilə bağlayırlar (3, s.18). Kənd adı etnonim xarakterlidir.

**Qaraxanbəyli**. Hazırda Naxçıvan şəhərində kənddir. XIX əsrdə Naxçıvan əyalətinin Naxçıvan mahalına aid kənd olmuşdur (14, s.497).

Fikrimizcə, kənd adı XI-XII əsrlərdə Orta Asiyada hökmranlıq etmiş Türk sülaləsinin adı ilə bağlı yaranmış toponimdir. Mənbələrdə göstərilir ki, Qaraxanbəyli tirəsi Kəngərli tayfasına aid olmuşdur (3, s.27).

**Yurdçu-Girdəsər.** Hazırda Kəngərli rayonunda Yurdçu kənd adı kimi qeydə alınmışdır. XIX əsrdə Naxçıvan əyalətinin Xok mahalına (14, s.508; 11, s.150), XX əsrin əvvəllərində Naxçıvan qəzasına aid kənd olmuşdur (12, s.331). Adil Bağırov tədqiqatlarında qədim mənbələrə əsasən, oykonimin 1590-cı il mənbəsində Dərəşahbuz nahiyəsinə aid *Kərdəsər* kəndi, 1727-ci il mənbəsində Dərələyəz nahiyəsinə aid Muğanlı kəndinin digər adının *Yurdçu* olduğunu və XIX əsrə qədərki mənbələrdə bu kənd haqqında məlumatın olmadığını qeyd etmişdir (4, 217, 255). Çox güman ki, Girdəsər sözünün fonetik variantıdır.

K.N.Smirnov adı *Yurçi* şəklində qeyd edir və yazır ki, bu, Türk tayfalarından birinin adıdır. Toponimin birinci komponenti "yurdçu/yurçi" Kəngərli nəsillərindən birinin adıdır (13, s.15). Bu barədə K.N.Smirnovun 1934-cü ildə nəşr olunmuş əsərində də məlumat vardır. Mənbələrdə yurdçu sözünün rütbə adı olması göstərilir: "Hülakülər dövlətinin ordusunda inaq, bakaul, yasaul, yurdçu, bəlarğuçi, bəxşi və s. məmurlar xidmət edirdi. Düşərgədə, yaylaq və qışlaqlarda padşahın və hərbi hissələrin yerləşdiyi məskənlər - yurdlar yurdçular tərəfindən salınırdı" (1, s.236). Kəngərlilərin bir qolu yurdçu vəzifəsini icra etdiyindən sonralar bu ad tirə adı kimi sabitləşmişdir.

**Nəticə**

Naxçıvan ərazisində Kəngərli tayfasına məxsus olan (etnonim səciyyəli) toponimləri müəyyənləşdirmək üçün müraciət etdiyimiz qədim mənbələr bu ərazidə yaşamış tayfaların, qəbilələrin bütövlükdə Azərbaycan türkləri olduğunu, eləcə də bu toponimlərin həmin tayfaların dil vahidləri hesabına yarandığını sübut edir. Bu vahidlərin bir çoxu bizim qədim dövrlərlə səsləşir ki, bu da dilimizin əski dövrlərinin tədqiqi istiqamətində xüsusi əhəmiyyət daşıyır. Sonda belə elmi nəticəyə gəlirik ki, Naxçıvan ərazisindəki Kəngərli tayfasına məxsus olan (etnonim səciyyəli) toponimlər də milli mənşəli adlardır və bu ərazilərin tarixini, qədimliyini, milliliyini özündə əks etdirir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Sovet Ensiklopediyası. (1986) XIX c., Bakı:
2. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti: (2007), 2 cilddə. I c., Bakı: "Şərq-Qərb", 304 s.
3. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti: (2007), 2 cilddə, II c., Bakı: "Şərq-Qərb", 304 s.
4. Bağırov A. (2008). Naxçıvanın oykonimləri. Bakı: "Nurlan", 336 s.
5. Bayramov İ. (2002). Qərbi Azərbaycanın Türk mənşəli toponimləri. Bakı: "Elm", 346 s.
6. Budaqova Q. (1988). Naxçıvan Muxtar Respublikasının toponimləri, Bakı: Nafta Press,
7. Budaqov B. (2004), Qeybullayev Q. Naxçıvan diyarının yer yaddaşı. Bakı: Nafta Press, 120 s.
8. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti (əlyazma): 4 cilddə, III c., 218 s.
9. Eyvazlı Ə. (2006). Naxçıvan qədim Türk torpağıdır. Bakı: "Elm", 154 s.
10. Qeybullayev Q.Ə. (1977). Naxçıvanın bəzi oykonimləri haqqında. Bakı: "Elm və həyat", №6, s.12-14
11. Григорев В.В. (1833). Статистическое описание Нахичеванской провинций, Санкт-Петербург: 264 с.
12. Пагирев Д.Д. (1913). Алфавитный указатель к пятиверстной карт Кавказского края. Тифлис: Типография К.П.Казловского, 530 с.
13. Смирнов Н.К. (1999), Материалы по истории и этнографии Нахичеванского края (Тифлис, 1934 г), Баку: Озан ст. 156.
14. Шопен И. (1852). Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. Санкт-Петербург, 644 с.
15. Vəliyev (Baharlı) M, (1993). Azərbaycan, (coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat). Bakı: "Azərnəşr", 208 s.

## SUMMARY

**Jamila Maharramova**

## INFLUENCE OF KANGARLI ON NAKHCHIVAN TOPONYM AND THEIR ETYMOLOGICAL ANALYSIS

The article deals with the toponyms of Nakhchivan regions, which arose in connection with the name of the Kangarli tribe, and the ethnolinguistic analysis of these toponyms. Toponyms arising from tribal names are considered ethnotoponyms. Ancient Turkic names of tribes, descendants, peoples, tribes play a key in the creation of toponyms with ethnonym characteristics. The existence of these toponyms, especially oikonyms, which are closely related to the name of the Kangarli tribe existing in the area, was investigated in ancient sources and these facts were reflected in the article. Ethnolinguistic analysis of some ethnonym-like toponyms (Karabakhlar, Karakhanbeyli, Galasar, Yurdcu-Girdasar, Arafsa, Kamarli, Khal-khal, Türkesh) arising from the name of the Kangarli tribe included in Nakhchivan regions was conducted.


***Key words:*** *Nakhchivan, Kangarli, ethnotoponym, oikonym, toponym, Karabakhlar, Karakhanbeyli, Galasar, Yurdcu-Girdasar, Arafsa, Kamarli, Khal-khal, Türkesh*


## РЕЗЮМЕ

**Джамила Магаррамова**

## ВЛИЯНИЕ КЕНГЕРЛИНСКИХ ЭТНОНИМОВ НА НАХЧЫВАНСКИЕ ТОПОНИМЫ И ИХ ЭТИМОЛОГИЧЕСКИЙ АНАЛИЗ

В статье рассматриваются включенные на территорию Нахчывана топонимы, возникшие в связи с названием племени Кенгерли, и этнолингвистический анализ этих топонимов. Топонимы, возникшие в связи с названиями племен, считаются этнотопонимами. В образовании топонимов этнонимического характера основную роль играют древнетюркские племенные, родовые, народные, тирские, родоплеменные названия. Существование этих топонимов, особенно ойконимов, тесно связанных с существовавшим на территории племенем Кенгерли, было исследовано в древних источниках, и эти факты нашли отражение в статье. Проведен этнолингвистический анализ некоторых топонимов (Карабахлар, Караханбейли, Галасар, Юрдчу-Гирдесар, Арафса, Кемарли, Хал-хал, Тюркеш), возникших в связи с названием племени Кенгерли, входящего на территорию Нахчыванской Автономной Республики выполненный.


***Ключевые слова:*** *Нахчыван, этнотопоним, ойконим, топоним, Карабаглар, Караханбейли, Галасар, Юрдчу-Гирдесар, Арафса, Кемарлы, Хал-хал, Тюркеш*